**Fizika**

**Tapşırıqların nümunələri**

1. Sadalananlardan hansı skalyar kəmiyyətdir?

I. Gedilən yol II. Enerji

ა) Yalnız I ბ) Yalnız II გ) Hər ikisi დ) Heç biri

2. Cisim əvvəlcə şimala doğru 3 km, sonra isə qərbə doğru 4 km hərəkət etdi. Cismin getdiyi yolun yerdəyişmənin moduluna nisbəti nəyə bərabərdir?

ა) 1 ბ) 1,4 გ) 2,8 დ) 7

3. Yer səthindən yuxarı atılmış cismin maksimal qalxma hündürlüyü h-dır. 2h/3 hündürlüyündə kinetik enerjinin potensial enerjiyə nisbəti nəyə bərabərdir? Havanın müqavimət qüvvəsini nəzərə almayın. Sıfırıncı səviyyə olaraq yer səthini hesab edin.

ა) 1/3 ბ) 1/2 გ) 2 დ) 3

4. Şəkildə dörd cismin sürəti və kütləsi təsvir olunub. Hansı iki cisim bərabər impulsa malikdir?




ა) Heç biri;

ბ) 1 və 4;

გ) 2 və  4;

დ) 1 və 3.

5. Şəkildə rəqs edən cismin koordinatının zamandan asılılıq qrafiki verilmişdir. Rəqs tezliyi nəyə bərbərdir?




ა) 0,2 Hs

ბ) 0,25 Hs

გ) 4 Hs

დ) 5 Hs

6. q nöqtəvi yükün potensialı yükdən r məsafədə $\varphi$-dır, $r_1$ məsafədə isə $4\varphi$-dır. $r_1$ nəyə bərabərdir?

ა) r/4　　ბ) r/2　　გ) 2r　　დ) 4r

7. Yastı kondensatorun lövhələri arasındakı məsafə d-dir. Kondensatorun tutumunu 4 dəfə artırdıqda bu məsafə nəyə bərabər olar?

ა) d/4　　ბ) d/2　　გ) 2d　　დ) 4d

8. Eyni materialdan bərabər en kəsiyi olan iki məftil hazırlanmışdır. Onlardan birincinin müqaviməti ikincinin müqavimətindən iki dəfə çoxdur, uzunluğu isə L-ə bərabərdir. İkinci məftilin uzunluğu nəyə bərabərdir?

ა) L/4　　ბ) L/2　　გ) 2L　　დ) 4L

9. Verilmiş sxemdə R müqavimətli naqildə cərəyan şiddəti I-dir. AB sahəsində tam cərəyan şiddəti nəyə bərabərdir?

ა) 1,5I ბ) 2I გ) 2,5I დ) 3I




10. Reostatdan istifadə etməklə kənar dövrənin müqavimətini azaltdılar. Dövrədə cərəyan şiddəti və mənbənin sıxacında gərginlik necə dəyişdi?



ა) Cərəyanın şiddəti artır, gərginlik azalır;

ბ) Cərəyanın şiddəti azalır, gərginlik artır;

გ) Hər ikisi azalır;

დ) Hər ikisi artır.

## Düzgün cavablar

| | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| ა | | | | | | X | X | | X | X |
| ბ | | X | X | | X | | | X | | |
| გ | X | | | | | | | | | |
| დ | | | | X | | | | | | |